*Yalçın RÜSTƏMOV*
*magistrant*
*Yalcin_eyr@mail.ru,*

*Firuzə Nəcəf qızı ƏLİYEVA*
*Azərbaycan Kooperasiya Universitetinin*
*“Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi”*
*kafedrası, i.f.d, dos.*

# AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR

*Xülasə*

Mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi irsin qorunub saxlanması, dövlət siyasətinin əsas prioritetlərindən biri kimi bu istiqamətdə dövlət proqramları qəbul edilmişdir.

***Açar sözlər: yaşıl iqtisadiyyat, sosial-iqtisadi inkişaf, təbii resusrlar, ətraf mühitin çirklənməsi, yaşıl texnologiya.***

## *Giriş*

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl” iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Qeyd edək ki, Azərbaycanda qurulmuş təkrar emal prosesi “yaşıl iqtisadiyyat”ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir.

Müasir iqtisadiyyatda “təkrar emal” anlayışı mühüm yer tutur. İstehlak prosesindən sonra tullantıların bir qismini yenidən istifadəyə yararlı hala gətirmək mümkündür. Təkrar emal yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsidir. Əsas məqsəd təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal bazası yaratmaqdır. Təkrar emal ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir ki, bu da enerji qənaətinə imkan verir[1].

Tarix boyu müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü təhdid altında olan Azərbaycan dövlətinin sistemli iqtisadi inkişaf strategiyası olmadığına görə ölkə iqtisadiyyatı dəfələrlə böhranlarla üzləşmiş, Azərbaycan xalqı layiq olduğu həyat səviyyəsinə nail ola bilməmişdir.

Zəngin təbii resurslara malik olmasına baxmayaraq, güclü siyasi liderin olmaması səbəbindən ölkədə iqtisadi münasibətlər düzgün tənzimlənməmiş, mövcud potensialdan səmərəli şəkildə istifadə edilməmiş, nəticədə Azərbaycan xalqı zaman-zaman böhran və fəlakətlərlə üzləşmişdir. XX əsrin 60-cı illərində Azərbaycanın yenidən dərin iqtisadi böhran mərhələsinə qədəm qoyduğu bir tarixi şəraitdə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev ölkədə nəinki yeni dövlətçilik ənənələrinin, həmçinin zamanında uğurla icra edilən və gələcək nəsillərə ötürülən sosial-iqtisadi inkişaf strategiyasının əsasını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövrünün - 1969-1982-ci və 1993-2003-cü illərin sosial-iqtisadi vəziyyətinin statistik təhlili bir daha göstərir ki, O, ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün qətiyyətli addımlar atmış, uzaqgörənliklə, əsaslandırılmış şəkildə hazırlanan, respublikanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramlarının müəllifi olmaqla onların icrasına tam nail olmuşdur. Qeyd etmək lazımdır ki, Heydər Əliyev 1969-cu ildə ölkə rəhbəri seçilən vaxt Azərbaycan iqtisadiyyatı keçmiş

İttifaq ölkələri ilə müqayisədə çox zəif inkişaf etməklə milli gəlirinin artım sürətinə və adambaşına düşən milli gəlirə görə SSRİ-nin orta göstəricisindən geri qalırdı.

Belə bir çətin dövrdə Azərbaycana rəhbərliyə başlayan Ulu öndər Heydər Əliyev qısa müddətdə ölkə iqtisadiyyatının dərindən və kompleks təhlilinə, geriliyin əsas səbəblərini aşkara çıxarmağa nail olmuşdur. İqtisadiyyatın hərtərəfli inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün yeni inkişaf strategiyaları, proqramlar hazırlanmış və mərhələli şəkildə onların icrasına başlanılmışdır. Hər bir məsələyə xüsusi həssaslıqla yanaşan Ümummilli lider strateji xətti və prioriteti yüksək peşəkarlıqla müəyyənləşdirməklə ölkənin sosial-iqtisadi inkişaf modelini yaratmağa müvəffəq olmuşdur.

Azərbaycanın iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, uzun illər diqqətdən kənarda qalmış kənd təsərrüfatının inkişafı üçün Heydər Əliyevin rəhbərliyi ilə mühüm qərarlar qəbul edilmişdir. “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını inkişaf etdirmək tədbirləri haqqında”, “Azərbaycan SSR-də kənd təsərrüfatını daha da intensivləşdirmək tədbirləri haqqında”, “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülük və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” qərarlarda kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil olunmuş, onun inkişaf perspektivləri müəyyənləşdirilmiş, əkinçilik və heyvandarlığın inkişafında mövcud olan nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanmış, kənd təsərrüfatının dinamik inkişafını təmin etmək məqsədilə intensivləşmənin tətbiqinə əsaslı vəsait qoyuluşunun artırılması məsələləri öz əksini tapmışdır.

Ümummilli liderin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasətin sayəsində sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və ticarətdə əldə edilmiş yüksək nailiyyətlərin nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illər ərzində 71,0 faiz artmış və 2002-ci ildə 6,1 milyard manata çatmışdır.

Ulu öndər tərəfindən 1999-cu ildə “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olunduqdan sonra ölkədə təhsil islahatlarına başlanılmışdır. Həmin proqrama uyğun olaraq ali təhsildə struktur dəyişiklikləri aparılmış, təhsil müəssisələrinə müstəqillik və geniş səlahiyyətlər verilmiş, bir sıra ali təhsil müəssisələri öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurmuş, təhsilin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə dövlət təhsil ocaqları ilə yanaşı, qeyri-dövlət təhsil müəssisələrinin şəbəkəsi də inkişaf etmişdir.

Ulu öndər Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə Azərbaycan təbiətinin mühafizəsinə böyük diqqət yetirmiş, məhz Onun rəhbərliyi ilə ekoloji siyasətin həyata keçirilməsi üçün genişmiqyaslı qanunvericilik bazası işlənib hazırlanmış və qəbul edilmişdir. Bunun nəticəsidir ki, stasionar mənbələrdən atmosferə atılan zərərli maddələrin miqdarı 2002-ci ildə 1993-cü ilə nisbətən 7 dəfə azalmışdır. Azərbaycan Respublikasında uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq, ölkədə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, ömür uzunluğunun artmasına və müsbət miqrasiya saldosuna, eləcə də əhali sahəsində digər göstəricilərin müsbət tendensiyasına nail olunmuşdur. Yuxarıda qeyd olunanlar əminliklə onu deməyə əsas verir ki, Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi, Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş və son 13 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keyfiyyətcə yeni müstəviyə keçirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosialyönümlü iqtisadiyyatın inkişafına nail olunmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilmiş Dövlət Proqramlarında, habelə digər tədbirləri əhatə edən Fərman və sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası, qanunvericilik bazasının təkmilləşdirilməsi ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir [2].

Bəşəri sivilizasiyanın tarixi inkişaf dövrlərinə nəzər yetirsək, müxtəlif şəhərlərin inkişaf prosesində fərqli radikal transformasiyalara məruz qaldığını və təbii-etnik təsirlərin bu prosesə ciddi formada təsir göstərdiyini müşahidə edə bilərik. [3,4].

## ƏDƏBİYYAT

1. "Yaşıl" iqtisadiyyat. https://www.economy.gov.az/az/page/yaşıl-iqtisadiyyat
2. Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının banisidir. https://www.yeniazerbaycan.com/Siyaset_e34690_az.html
3. Yaşıl İqtisadiyyat Perspektivləri. https: // ereforms . gov . az / az /publication/8
4. "Yaşıl şəhərlərin" qurulmasında dekarbonizasiya məsələləri. https://ereforms.gov.az/files/publications/pdf/az/b87cb7433650a8abbc72f0324cc1fd71.pdf

***Магистрант Ялчин Рустамов,***
***Фируза Наджаф кызы Алиева***
***Азербайджанский Университет Кооперации***
***Кафедра "Организация бизнеса, государственное и муниципальное управление", доктор философии по экономике, доц.***

## Национальные приоритеты социально-экономического развития в Азербайджане

***Резюме***

Одним из главных приоритетов государственной политики стало укрепление материально-технической базы культурных центров, сохранение историко-культурного, литературно-художественного и научно-философского наследия, в этом направлении были приняты государственные программы.

***Ключевые слова: зеленая экономика, социально-экономическое развитие, природные ресурсы, загрязнение окружающей среды, зеленые технологии.***

***Master's student Yalchin Rustamov***
***Firuza Najaf Aliyeva***
***Azerbaijan Cooperation University***
***Department of Business Organization, State and Municipal Administration Doctor of Philosophy in Economics, Associate Professor***

## National priorities on socio-economic development in Azerbaijan

***Summary***

One of the main priorities of state policy was strengthening the material and technical base of cultural centers, preserving the historical, cultural, literary, artistic, scientific and philosophical heritage; state programs were adopted in this direction.

***Key words: green economy, socio-economic development, natural resources, environmental pollution, green technology***